DOI: http://www.doi.org/10.36719/2663-4619/66/89-93

**Ülvi Mədət oğlu İsmayılov**
Azərbaycan Respublikası Təhsil İnstitutu
ulvimeded@gmail.com

# MƏKTƏB DİREKTORLARININ YARADICI LİDERLİK ÖZƏLLİKLƏRİ ÖLÇMƏ VASİTƏSİNİN DOĞRULUĞU VƏ ETİBARLILIĞININ TƏHLİLİ

***Açar sözlər:*** *məktəb direktoru, yaradıcı liderlik, ölçmə vasitəsi, etibarlılıq, doğruluq*

## Analysis of the validity and accuracy of the scale of the creative leadership qualities of school administrators

**Summary**

The purpose of this research is to check the validity and accuracy of “Scale of The Creative Leadership Qualities of School Administrators” by Uchar and Saghlam (2019) in case of Azerbaijan. In total, 613 teachers have completed this survey. The “Scale” has been supported by the values (scores) acquired from the linguistic equivalence and correlation between Azerbaijani and Turkish versions. The research has concluded that there was no necessity to reevaluate the describing factor analysis, because of this fact, validating factor analysis has been conducted in this research. 5 points in the “Scale” has been disapproved and removed at the end of validating factor analysis. The validity of the internal sequence of the “Scale” has been calculated with the use of Cronbach Alpha coefficient. The validity ratio of the subfactors of the “Scale” has been calculated as 0.92 for entrepreneurship and effective communication, 0.94 for innovation and changes and 0.76 for variety. This research concludes that “Scale of The Creative Leadership Qualities of School Administrators” is valid and accurate in case of Azerbaijan.
***Key words:*** *school administrator, creative leadership, “Scale”, validity, accuracy*

## Giriş

Günümüzdə rəqabətə dayanan bir sistem vardır. Bu rəqabətdə daha uğurlu olmaq və inkişaf etmək üçün istər şəxslər, istərsə də qurumlar qarşıya çıxan problemləri daha tez və effektiv həll edə bilməli, zamanı doğru idarə etməli, daha keyfiyyətli iş ortaya qoya bilməlidir. Bunun üçün bir çox keyfiyyətlərin fərdlərdə və qurumlarda olması vacibdir. Bu keyfiyyətlərdən biri və ən önəmlisi yaradıcılıqdır. Çünki yaradıcılıq daha effektiv və yaxşı qərarlar verməyi təmin edir. Yaradıcılıq istər şəxsi, istərsə də ictimai qurumda yeni və orijinal düşüncələrin ortaya çıxmasına, qarşıya çıxan problemlərin daha tez və effektiv həll olunmasına imkan verir.

Yaradıcılıq anlayışının günümüzdə elm insanları tərəfindən aydın və dəqiq bir tərifi verilməyib. Bəzilərinə görə, yaradıcılıq bir proses, bəzilərinə görə isə bir nəticədir (məhsuldur). Tədqiqatçılar yaradıcılıq anlayışı ilə bağlı bir-birindən fərqli təriflər söyləsələr də, bu təriflərin ortaq nöqtəsi yaradıcılığın yeni və fərqli bir şey etmək olduğu fikridir. Craft (2003) yaradıcılığın sadəcə sənətlə bağlı olmadığını, ömür boyu davam edən bir qabiliyyət olduğunu, bundan əlavə, yaradıcılığı özünü ifadə etmək, zəka və xəyal gücündən istifadə edə bilmək olaraq ifadə etmişdir. Yaradıcılıq intuisiya yolu ilə qavramaq, qəbul etmək, sual vermək, analiz və sintez etmək, problemi həll etmək, tənqidi yanaşmaq, orijinal həll yolları tapmaq və bunun nəticəsində məlumat ortaya qoymaq kimi düşüncələri əhatə edir (İhsan, 1990, s:18). Nickerson (1999) yaradıcılığı insanın qarşılaşdığı problemi həll etmək və ya bunun nəticəsində yeni bir məhsul ortaya qoymaq bacarığı olaraq ifadə etmişdir. Bir digər tərifdə isə yaradıcılıq var olan düşüncələri olduğu kimi bir araya gətirmək, ya da bu düşüncələrdən indiyə kimi bilinməyən və gözlənilməz yeni fikirlər ortaya çıxarmaqdır (Robbins & Coulter, 2002, s: 37).

Yaradıcı düşünən insan, təbii olaraq, normal düşünən bir insandan fərqli keyfiyyətlərə sahib olur. Yaradıcı düşünən şəxslər digərlərinə görə daha çevikdirlər və yeni mühitə daha tez uyğunlaşırlar, daha diqqətlidirlər, başqalarının dəyər verdiyi şeylərə hörmətlə yanaşırlar. Bundan əlavə, bu insanlar həssasdırlar və ətraflarına və digərlərinə daha tez uyğunlaşırlar. Bu insanların özgüvəni yüksəkdir və özlərindən əmindirlər (Carin və Sund, 1985).

Mükəmməl bir lider olan idarəçilər yaradıcı və ağıllıdırlar və bunlardan istifadə edərək bacarıqlarını inkişaf etdirirlər. Böyük liderlər yaradıcı baxış bucağına sahibdirlər. Fikirlərinin yaxşı olub-olmadığını analiz edir, bu fikirləri doğru bir şəkildə həyata keçirirlər. Yaradıcı liderlər ümumi fayda üçün digərlərini də öz dəyərlərinə və fikirlərinə inandırırlar (Mahlı, 2018: 24). Yaradıcı liderlik xəyal gücünün olduğu, yenilik və

dəyişiklik üçün yaradıcı fikirlərin istifadə edildiyi, qarşıya çıxan problemin tez və səmərəli bir şəkildə həll olunduğu, effektiv ünsiyyət vasitələrinin yaradıldığı liderlik formasıdır (Sağlam, 2020: 2).

Harris (2009) yaradıcı liderin xüsusiyyətlərini aşağıdakı şəkildə ifadə etmişdir.

- Yaradıcı lider irəli sürdüyü prinsiplərlə təşkilat daxilində önəmli təsir gücünə malikdir,
- Yaradıcı lider bərabər çalışdığı komanda yoldaşlarının qabiliyyət və bacarıqlarını inkişaf etdirməyə çalışır və onların bu qabiliyyət və bacarıqlarından maksim dərəcədə istifadə edə bilməyin yollarını axtarır,
- Yaradıcı liderdə liderlik eqosu yoxdur,
- Yaradıcı lider dəyişməyin və yeniliyin tərəfdarıdır,
- Yaradıcı lider uzaqgörən biridir və gələcəkdə qarşılaşa biləcəyi problemləri əvvəlcədən bilir,
- Yaradıcı lider yeniliklərə can atan və araşdırmaq arzusu yüksək olan biridir.

Chernin (2003) isə yaradıcı liderlərin idarəetmə prosesində üç prinsipi mənimsədiyini qeyd edir və bu prinsipləri aşağıdakı şəkildə sıralayır:

- İnsanlarda maraq oyandıra bilmək,
- Yüksək səviyyədə keyfiyyət yaratmaq və bunu qorumaq,
- Görülən işə bağlanmaq.

İyirmi birinci əsrdə baş verən dəyişikliklər digər sahələrdə olduğu kimi təhsil ocaqları olan məktəblərdən də gözləntiləri artırır. Bu gözləntilərin qarşılana bilməsi, dəyişikliklərə uyğunlaşa bilmək, bu dəyişiklik zamanı qarşıya çıxan problemləri daha çevik və doğru bir şəkildə həll edə bilmək üçün yaradıcılıq vacibdir.

Təhsildə yaradıcı liderlik sadəcə qarşıya çıxan problemin həll edilməsi deyil, problemin müəyyən edilməsi və yaxud yarana biləcək problemin aradan qaldırılması və təhsil alan hər kəs üçün daha yaxşı bir gələcək təmin etməkdir. Bundan əlavə, yaradıcı liderliyin təməlində digər insanlarla ünsiyyət qura bilmək dayanır. Bu liderlik resurs, fürsət və bərabər öyrənmənin baş verdiyi prosesdəki boşluqların səmərəli bir şəkildə doldurulmasını tələb edir. Əslində yaradıcı liderlik fərqli baxış bucaqlarını və düşüncə tərzlərini dərk edərək yenilikçi həll yollarını tapmaq bacarığıdır (MacBean, 2014; Almutlaq, 2018).

Artıq müasir dövrdə şagirdlərə hər hansı məlumatları öyrətməkdən ziyadə, öyrənməyi öyrətmə vacib olmuşdur. Bu səbəbdən məktəblərin yeniliyə açıq olması və müəllimlərin də fərqli iş tərzlərinə uyğunlaşması lazımdır. Artıq məlumatın toplanılmasında və təhlil edilməsində fərqləndirici amil təhsil olacaqdır. Məktəb rəhbərləri bu harmoniyanı təmin etmək üçün müəllimlərin yaradıcılığını üzə çıxarmaq məcburiyyətindədir. Əlbəttə ki, qeyd edilənləri həyata keçirə bilmək üçün məktəb direktorlarının da yaradıcı liderlik qabiliyyətlərinə sahib olması mütləqdir. Bu şəkildə təhsildə yaradıcılığı ön plana çıxarmaqla ətraf mühit imkanlarından ən yüksək səviyyədə istifadə edilə bilər. Məktəbdə şagirdlərə sadəcə mütləq məlumatları deyil, bu məlumatların nə cür formalaşdığının metodlarını öyrədə bilən yaradıcı liderlər fərqli bir mühit yarada bilərlər.

## Araşdırma üsulu

Araşdırmanın bu hissəsində tədqiqatda iştirak edən iştirakçılarının özəllikləri, iştirakçıların seçilmə üsulu, məlumatların toplanması üçün istifadə olunan vasitə, məlumatların toplanması, məlumatların analizi yer almışdır.

## İş qrupu

Sorğuda iştirak edən müəllimlər, 2020-2021-ci tədris ilində respublikanın müxtəlif məktəblərində işləyən müəllimlərdir. Müəllimlərin 443-ü (73,8%) qadın, 157-si (26,2 %) isə kişidir. Çalışma qrupunu meydana gətirən müəllimlər təsadüfi yolla seçilmiş və çalışmada könüllü olaraq iştirak etmişdir.

## Məlumat toplama vasitəsi

Məlumat toplama vasitəsi olaraq Uçar və Sağlan (2019) tərəfindən inkişaf etdirilən "Məktəb Direktorlarının Yaradıcı Liderlik Özəllikləri" Ölçmə Vasitəsi əsas alınaraq tədqiqat həyata keçirilib. Uçar və Sağlan məktəb direktorlarının yaradıcı liderlik özəllikləri ölçmə vasitəsində üç alt faktor müəyyən edib. Bunlar: "Təşəbbüskarlıq və səmərəli ünsiyyət", yeniliyə və dəyişməyə açıq olmaq" və "fərqlilik" faktorlarıdır. Cəmi 29 maddədən ibarət olan ölçmə vasitəsi 5-li Likert tipindədir. Maddələrin dərəcələndirməsi "Heç razı deyiləm" ilə "Tamamilə razıyam" arasında dəyişir. Tədqiqatçılar ölçmə vasitəsinin doğruluq və etibarlılıq çalışmasında üç alt faktorun cəmi variasiyanın 73.4 % -ni izah etdiyini müəyyən edib. Ölçmə vasitəsinin etibarlılığını müəyyən etmək üçün həyata keçirilən analizlər nəticəsində Cronbach Alpha əmsalının ölçmə vasitəsinin təşəbbüskarlıq və səmərəli ünsiyyət alt faktoru üçün 0.97, yeniliyə və dəyişməyə açıq olmaq üçün 0.97 və fərqlilik alt faktoru üçün isə 0.80 olduğu görünür.

## Fəaliyyət

Məktəb Direktorlarının Yaradıcı Liderlik Özəllikləri Ölçmə Vasitəsinin Azərbaycan dilinə uyğunlaşdırılmasını həyata keçirmək üçün ilk öncə ölçmə vasitəsini inkişaf etdirən tədqiqatçılardan Rezzan Uçar ilə əlaqə yaradaraq ölçmə vasitəsinin Azərbaycan dilinə uyğunlaşdırmaq istəyi bildirilmişdir. Yazar ölçmə vasitəsinin Azərbaycan dilinə uyğunlaşdırıla biləcəyini e-mail vasitəsi ilə bildirmiş və ölçmə vasitəsinin istifadəsi üçün icazə vermişdir. İcazə alındıqdan sonra ölçmə vasitəsinin orijinal forması olan Türkcədən hədəf forması olan Azərbaycancaya tərcümə prosesi başlamışdır. Tədqiqatçı və Türkcə dil mütəxəssisi bir-birindən xəbərsiz şəkildə ölçmə vasitəsinin maddələrini Azərbaycan dilinə tərcümə etmiş və daha sonra bir araya gələrək tərcümələrini qarşılaşdırmışdırlar, hər maddə üçün Azərbaycan dilində vahid bir ifadə əldə edilmişdir. Daha sonra qiymətləndirmə forması hazırlanaraq ölçmə vasitəsinin Türkcə orijinal maddələri sol tərəfə Azərbaycan dilinə tərcümə edilmiş maddələr isə sağ tərəfə yazılmışdır. Ayrıca olaraq da lazımi görülən vəziyyətlərdə; maddənin dəyişdirilməsi, düzəldilməsi və ya çıxarılması ilə bağlı görüş və təklifləri yazacaqları açıqlama bölümü də əlavə edilmişdir. Daha sonra idarəetmə sahəsində müəllimlərlə əlaqə yaradaraq ölçmə vasitəsinin orijinal maddələri və Azərbaycan dilinə tərcümə edilmiş ifadələrin oxunub, tərcümə olunan maddələrin orijinal maddələrlə məna və məzmun baxımından nə qədər uyğunluq təşkil etdiyi haqqında qiymətləndirmə aparmaları istənilmişdir. Dəyərləndirmə anketi idarəçi müəllimlər tərəfindən bir-birindən xəbərsiz doldurulmuş, maddələrlə bağlı düzəlişlər də qəbul edilmişdir. İdarəçi müəllimlərin görüşləri diqqətə alınaraq, Azərbaycan dilinə tərcümə olunan maddələrdə lazımi düzəlişlər edilmişdir. Düzəlişlər sözlərin daha uyğun sinonimləri ilə əvəz edilməsi kimi xırda dəyişikliklərdən ibarətdir. Azərbaycan dilinə tərcümə edilmiş forma; maddə sayı, maddə sırası və dərəcələndirmə kimi nöqtələr baxımından orjinal formdakı nizamı qorunmuşdur. Daha sonrakı mərhələdə Azərbaycan dili mütəxəssisləri ölçmə vasitəsində yer alan hər bir maddəni qrammatik və leksik baxımdan yoxlamışdır. Azərbaycan dilində anket forması ən son şəklini aldıqdan sonra, türk dili mütəxəssisi tərəfindən Azərbaycan dilində maddələr yenidən türk dilinə tərcümə edilmişdir. Orjinal maddələr və Azərbaycan dilindən geri - Türk dilinə tərcümə edilmiş maddələr yan-yana gətirilərək, oxşarlıqları tədqiqatçı və iki müstəqil dil mütəxəssisi tərəfindən yoxlanılmış və yüksək səviyyədə oxşarlıq müəyyən edilmişdir. Beləliklə, ölçmə vasitəsinin dil uyğunluğu çalışması başa çatdırılmışdır.

## Quruluşun uyğunluğu

Məktəb direktorlarının yaradıcı liderlik özəllikləri ölçmə vasitəsinin faktor quruluşunun xüsusiyyətlərini müəyyən etmək məqsədi ilə Uçar və Sağlan (2019) tərəfindən həyata keçirilən izahedici faktor analizi araşdırılmışdır. Həyata keçirilən araşdırmalar nəticəsində ölçmə vasitəsinin yenidən izahedici faktor analizinin edilməməsinə qərar verilmişdir. Elmi ədəbiyyat araşdırılarkən ölçmə vasitəsinin uyğunlaşdırılma çalışmasında təkrar izahedici faktor analizinin edilməsinə ehtiyac olmadığı qeyd edilir. Uçar və Sağlan (2019) tərəfindən əldə edilən quruluşun nümunələr haqqında məlumatlara uyğunlaşıb-uyğunlaşmadığını anlamaq məqsədilə təsdiqləyici faktor analizi nəticələrindən istifadə edilmişdir. Təsdiqləyici faktor analizi nəticəsində aşağıdakı model əldə edilib.



Əldə olunan modeldən də göründüyü kimi, daha yaxşı uyğun dəyərlər əldə etmək məqsədi ilə 5 maddə (m6, m13, m14, m15 və m26) ölçmə vasitəsindən çıxarılıb. Yerdə qalan 24 maddə üçün təsdiqləyici faktor analizi edilmişdir.

| Sd | $\chi^2$/sd | CFI | GFI | AGFI | RMSEA | NNFI |
|---|---|---|---|---|---|---|
| 613 | 3.195 | .949 | .901 | .877 | .060 | .928 |

Üç alt faktoru olan Məktəb Direktorlarının Yaradıcı Liderlik Özəllikləri Ölçmə Vasitəsi üçün həyata keçirilən təsdiqləyici faktor analizindən əldə olunan dəyərlərə nəzər saldıqda $x^2$/sd = 3.195; GFI (Goodness of Fit İndex)=.901; AGFI (Adjusted Goodness of Fit İndex)=.877; NFI=.928; CFI (Comperative Fit İndex) = .949; RMSEA (Root Mean Square Error of Approximation)=.060 şəklində olduğu görünür. Ümumilikdə bu dəyərlərin müvafiq uyğunluq səviyyəsində olduqları deyilə bilər (Şimşek, 2007; Sümer, 2000; Schermelleh Mooseburger ve Müller, 2003; Kline, 2011; Bayram, 2013). Hesablanan bəzi modifikasiya dəyərlərinə baxıldığında (m1-m2; m1-m4; m10-m11; m16-m17; m17-m18; m20-m21; m22-m23; m27-m28) xəta kovariasiyaları arasında korrelyasiya olduğu müəyyən edilmişdir.

## Etibarlılıq

Təsdiqləyici faktor analizi sonrası çıxarılan maddələrdən sonra ölçmə vasitəsinin daxili ardıcıllığı ilə bağlı etibarlılığı Cronbach Alfa əmsalı ilə hesablanmışdır. Bu dəyərlər "təşəbbüskarlıq və səmərəli ünsiyyət" alt faktoru üçün 0.92, "yeniliyə və dəyişikliyə açıq olmaq" alt faktoru üçün 0.94 və "fərqlilik" alt faktoru üçün 0.76 olaraq müəyyən edilmişdir.

## Nəticə, müzakirə və təkliflər

Bu araşdırmanın məqsədi Uçar və Sağlan (2019) tərəfindən inkişaf etdirilən Məktəb Direktorlarının Yaradıcı Liderlik Özəllikləri Ölçmə Vasitəsinin Azərbaycan dilində doğruluq və etibarlılığını araşdırmaqdır. İlk əvvəl araşdırma əsnasında ölçmə vasitəsinin orijinal formasından istifadə edə bilmək üçün ölçmə vasitənin yazarlarından biri olan Rezzan Uçar ilə əlaqə yaradılmış və ölçmə vasitəsinin istifadəsi üçün icazə alınmışdır. Daha sonra anket formasının tərcüməsi, dil ekvivalentliyi və dil uyğunluğu çalışmaları həyata keçirilmiş, əldə olunan Azərbaycan dilində formanın orijinal Türkcə formanı yüksək səviyyədə uyğunluğu və təmsil etdiyi müəyyən edilmişdir. Quruluş uyğunluğu mərhələsində faktor quruluşunun xüsusiyyətlərini müəyyən etmək məqsədilə izahedici faktor analizi araşdırılmış və araşdırmalar nəticəsində ölçmə vasitəsinin yenidən izahedici faktor analizi edilməsinə ehtiyac olmadığı müəyyən edilmişdir.

Ölçmə vasitəsinin qurluşunun nümunələr haqqındakı məlumatlara uyğun olub-olmadığını müəyyən etmək məqsədilə təsdiqləyici faktor analizi nəticələrindən istifadə edilmişdir. Əldə olunan dəyərlərə baxılmış və daha yaxşı uyğun dəyərlər əldə etmək üçün 5 maddənin ölçmə vasitəsindən çıxarılması uyğun hesab edilmişdir. 29 maddədən 5 maddə ölçmə vasitəsindən çıxarılmış və 24 maddəlik forma üçün təsdiqləyici faktor analizi həyata keçirilmişdir. Təsdiqləyici faktor analizi həyata keçirildikdən və uyğun dəyərlər əldə edildikdən sonra, ölçmə vasitəsinin etibarlılığını yoxlamaq məqsədi ilə Cronbach Alpha əmsalı istifadə edilmişdir. Ölçmə vasitəsinin Cronbach Alpha əmsalı "təşəbbüskarlıq və səmərəli ünsiyyət" alt faktoru üçün 0.92, "yeniliyə və dəyişikliyə açıq olmaq" alt faktoru üçün 0.94 və "fərqlilik" alt faktoru üçün 0.76 olaraq əldə edilmişdir. Ölçmə vasitəsinin etibarlılığı ilə bağlı əldə edilən bu dəyərlər ölçmə vasitəsinin orijinal formasında əldə edilən dəyərlərə çox yaxındır.

Ümumi olaraq dəyərləndirildiyində Məktəb Direktorlarının Yaradıcı Liderlik Özəllikləri Ölçmə Vasitəsi Azərbaycanca formasının orta məktəblərdə müəllimlər üzərində istifadə etmək üçün doğru və etibarlı bir ölçmə vasitəsi olduğu müəyyən edilmişdir. Məktəblərdə müəllimlərin münasibətlərinə əsaslanaraq məktəb direktorlarının yaradıcı liderlik özəlliklərini müəyyən etmək üçün ölçmə vasitəsi istifadə edilə bilər. Ölçmə vasitəsinin 3 alt faktorundan (təşəbbüskarlıq və səmərəli ünsiyyət, yeniliyə və dəyişikliyə açıq olmaq, fərqlilik) əldə edilən yüksək dəyərlər direktorların yaradıcı liderlik özəlliklərini yüksək olduğunu, aşağı dəyərlər isə bu özəlliklərin lazımi səviyyədə olmadığının göstəricisidir.

## Ədəbiyyat

1. Almutlaq, Z. (2018). Understanding creativity: The nature of children's creativity and the development of creativity. *Master's thesis. The University of Toledo, Postgraduate Education Institute* .
2. Bayram, N. (2010). *Introduction to structural equation modeling AMOS applications.* Bursa: Ezgi *Bookstore*
3. Carin, A., & Sund, R. (1985). *Teaching science through discovery.* Brighton: Prentice Hall.
4. Chernin, P. (2003). Creative leadership. *Executive Excellence*, 3-4.

5. Harris, A. (2009). Creative leadership: Developing future leaders. *Management in Education*, 9-11.
6. Kline, R. (2011). *Principles and Practice of Structural Equation Modeling.* New York: The Guilford Press.
7. Macbean, A. (2014). Dancing into diversity: A curriculum for self-discovery, empathy, and creative leadership. *Journal of Dance Education*, 117-121.
8. Nickerson, R. (1999). Handbook of Creativity. In R. Sternberg, *Enhancing Creativity* (pp. 392-430). Cambridge: Cambridge University Press.
9. Robbins, S., & Mary, C. (2002). *Management.* New Jersey: Prentice Hall.
10. Saghlam, E. (2020). The relationship between creative leadership traits of school principals and organizational intelligence levels of schools. *Master's thesis. Van Centenary University, Institute of Education Sciences.*
11. Schermelleh-Engel, K., & Moosbrugger, H. (2003). Evaluating the fit of structural equation models: Test of significance and descriptive goodness-of-fit measures. *Method of Psychological Research Methods of Psychological Research*, 23-74.
12. Shimshek, Ö.F. (2007). *Introduction to structural equation modeling-basic principles and LISREL applications.* Ankara: Ekinoks
13. Sumer, N. (2000). Structural equation models: Basic concepts and best practices. *Turkish Psychology Articles*, 49-74
14. Turgut, İ. (1990). *Philosophy of Art*. İzmir: Karinca PressUchar, R., & Saghlam, E. (2019) The creative leadership qualities of school administrators: A study of developing a scale. *YYU Journal of Education Faculty, 417-435.*

**Rəyçi: prof. M.Alışov**

Göndərilib: 30.04.2021 Qəbul edilib: 07.05.2021